

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 2 (23.414)

*8 yanvar 2020-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vüqar Əhmədovu "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin (ASC) sədri vəzifəsinə təyin olunması ilə əlaqədar qəbul edib.

Görüşdə çıxış edən Prezident İlham Əliyev deyib: – Mən sizi "Azərişıq" Səhmdar Cəmiyyətinin sədri vəzifəsinə təyin edirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, siz bu vəzifəyə məsuliyyətlə yanaşacaqsınız. Bu, çox məsuliyyətli vəzifədir və enerji təminatı hər bir ölkə üçün strateji sahədir. Son illər ərzində ölkəmizdə bu sahədə çox böyük işlər görülübdür. Regionların sosial-iqtisadi inkişafına dair 2004-cü ildə qəbul edilmiş birinci Dövlət Proqramı çərçivəsində enerji güclərinin yaradılması nəzərdə tutulurdu. Artıq biz buna tam nail olduq. Bu gün bizim təqribən 1000 meqavatlıq əlavə enerji güclərimiz var ki, bu güclər həm ehtiyat təşkil edir, həm də ixrac potensialımızı genişləndirir. Keçən il ölkəmiz elektrik enerjisinin ixracından təqribən 60 milyon dollar civarında vəsait əldə edibdir.

Vüqar Əhmədov cənab Prezidentə ona göstərdiyi yüksək etimada görə təşəkkürünü bildirib.



## Naxçıvan Muxtar Respublikasının bəzi mərkəzi icra hakimiyyəti orqanlarının yenidən təşkil edilməsi barədə

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq dövlət orqanlarında müvafiq struktur dəyişikliklərinin aparılması məqsədilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının Vergilər Nazirliyi Dövlət Vergi Xidmətinə çevrilsin.

2. Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinə çevrilsin.

3. Naxçıvan Muxtar Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə çevrilsin.

4. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

4.1. bu Fərmanın 1-3-cü hissələri ilə yaradılmış mərkəzi icra hakimiyyəti orqanlarının əsasnamələrinin layihələrini hazırlayıb Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim etsin;

4.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 7 yanvar 2020-ci il*

## Naxçıvan Muxtar Respublikasında sosial müdafiə sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq muxtar respublikada sosial müdafiə sahəsində idarəetmənin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin:

-Dövlət Məşğulluq Xidməti;

-Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti publik hüquqi şəxs statuslu Agentliyə çevrilsin.

2. Naxçıvan Muxtar Respublikasının Dövlət Sosial Müdafiə Fondu publik hüquqi şəxsə çevrilsin.

3. Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin fəaliyyəti dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilsin.

4. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

4.1. bu Fərmanla yaradılan publik hüquqi şəxslərin nizamnamələrinin layihələrini hazırlayıb Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim etsin;

4.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 7 yanvar 2020-ci il*

## Ordubad Rayon Uşaq Xəstəxanasının yaradılması haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Muxtar respublikada uşaqların sağlam böyüməsi üçün tibbi xidmətlərin keyfiyyətinin artırılması və müasir tələblərə uyğunlaşdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın qəbul olunması bu sahədə görülən işlərin davamıdır.

Ordubad rayonunda əhalinin sayının 50 min nəfəri keçməsi uşaq xəstəxanasının yaradılmasını zəruri etmişdir.

Yuxarıda göstərilənləri nəzərə alaraq Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Publik hüquqi şəxs statuslu Ordubad Rayon Uşaq Xəstəxanası yaradılsın.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

2.1. bu Sərəncamla yaradılan publik hüquqi şəxsin nizamnaməsini təsdiq etsin;

2.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi, Səhiyyə Nazirliyi və Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi bu Sərəncamdan irəli gələn məsələləri həll etsinlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 7 yanvar 2020-ci il*

## İ.Ə.Abdullayevin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Ümumi şöbəsinin müdiri vəzifəsindən azad edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

İlkin Ədalət oğlu Abdullayev Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Ümumi şöbəsinin müdiri vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 7 yanvar 2020-ci il*

## Kollegiya iclası keçirilib



Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində keçirilən kollegiya iclasında Daxili İşlər naziri, general-leytenant Fazil Ələkbərov 2019-cu ildə daxili işlər orqanları tərəfindən görülmüş işlər barədə geniş məruzə ilə çıxış edib.

Diqqətə çatdırılıb ki, muxtar respublikanın daxili işlər orqanları da 2019-cu ildə bütün fəaliyyət sahələri üzrə əvvəlki illərin göstəricilərindən daha yüksək nəticələr əldə ediblər. Təkcə cinayətkarlığın dinamikasına nəzər yetirəndə 2018-ci illə müqayisədə 2,5 dəfə azalmanın müşahidə olunması buna əyani sübutdur. İl ərzində isə bütün uçot subyektləri üzrə cəmi 22 cinayət faktı qeydə alınıb. Bunlarla yanaşı, 2019-cu ildə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi və Prokurorluğu tərəfindən qeydə alınmış cinayət hadisələrinin açılması, cinayətlərin törədilməsində təqsirli bilinərək axtarışı elan olunmuş şəxslərin tutulması, eləcə də cinayət işləri üzrə dəymiş maddi ziyanın ödənilməsi 100 faiz təmin edilib, insan alverinə qarşı mübarizə sahəsində heç bir cinayət faktı qeydə alınmayıb.

2019-cu ildə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı əvvəlki illə müqayisədə 12 inzibati fakt artıq aşkar edilib, vətəndaşlar tərəfindən 319 müxtəlif növ silah və xeyli sayda döyüş sursatı təhvil verilib.

Fazil Ələkbərov diqqətə çatdırıb ki, biometrik şəxsiyyət vəsiqələrinə keçid prosesi ölkəmizin inkişaf etmiş dövlətlər sırasında irəliləməsinin bariz nümunəsidir. Azərbaycanın digər bölgələrində yaşayan muxtar respublika sakinlərinin biometrik şəxsiyyət vəsiqəsi ilə təmin edilməsi məqsədilə Bakı şəhərinə ezam olunmuş aidiyyəti xidmət əməkdaşları tərəfindən 2089 nəfərin qısa müddət ərzində şəxsiyyət vəsiqəsi ilə təmin olunması da bunun ifadəsidir.

Bildirilib ki, 2019-cu ildə daxili işlər orqanları üçün ən əlamətdar hadisələrdən biri Ali Məclis Sədrinin müvafiq fərmanı ilə təsis olunmuş Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbinin oktyabr ayında Ali Məclis Sədrinin iştirakı ilə təntənəli açılış mərasiminin keçirilməsi olub. Bu, daxili işlər orqanlarının kadr potensialının formalaşmasında atılmış ən mühüm addım kimi böyük əhəmiyyətə malikdir.

Nazir deyib ki, bundan sonra da cinayətkarlığa qarşı mübarizə və ictimai asayişin təmini sahəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən qarşıya qoyulan vəzifələr, əməliyyat-xidməti fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı tələb və tapşırıqlar tam həcmdə yerinə yetiriləcəkdir. Sabitliyin, əmin-amanlığın, dövlətin və vətəndaşların qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunması təmin olunaraq Naxçıvanın cinayətsiz region statusu qorunacaq, əldə olunmuş nəticələr daha da inkişaf etdiriləcəkdir.

Sonra məruzə ətrafında müzakirələr olub.

Kollegiya iclasına yekun vuran Daxili İşlər naziri, general-leytenant Fazil Ələkbərov nazirliyin tabeliyində olan qurumlara tapşırıqlarını verdikdən sonra qərar layihəsi qəbul edilib.

**Muxtar MƏMMƏDOV**

İcmal

# Təməlində ulu öndərimiz Heydər Əliyevin inkişaf konsepsiyası dayanan Naxçıvan gələcəyə uğurlu addımlarla irəliləyir

## *2019-cu ilin son ayının ümumi mənzərəsində də bu, aydın görünür*

*30 ilə yaxın dövrün blokadalı, eyni zamanda inkişaf və tərəqqili növbəti ilinin – 2019-cu ilin dekabr ayını da Naxçıvan ictimai-siyasi, sosial-iqtisadi uğurlarla başa vurdu. Ölkənin ən strateji bölgəsi olan muxtar respublikada son 25 ildə əldə olunan nailiyyətlər deməyə əsas verir ki, prinsipiallıq əsas hədəf kimi seçiləndə istənilən çətinliyi aşmaq, qarşıya qoyulandan daha çox uğura imza atmaqla çağdaş dövrün tarixini qürurverici hadisələrlə zənginləşdirmək mümkündür. Təməlində ulu öndərimiz Heydər Əliyevin inkişaf konsepsiyası dayanan və hələ illər öncədən gələcəyə hesablanmış mərhələli strateji hədəflər muxtar respublikanın hərtərəfli tərəqqisi ilə nəticələnib.*

Göstərilən dövlət qayğısı sayəsində bütün sahələrin eyni ahənglə inkişafı ilə müasirləşən Azərbaycanın beşminillik yaşlı Naxçıvanı, eyni zamanda tarixi-mədəni abidələrin, islami dəyərlərin qorunub yaşadıldığı qədim məkandır. Dekabrın 4-də Naxçıvanda Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin isə 40 illik yubileyinin qeyd olunması bunu deməyə əsas verir.

Bu münasibətlə təşkil olunan tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov yubileylərin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2019-cu il 9 aprel tarixli Sərəncamına əsasən qeyd olunduğunu bildirib. Ali Məclisin Sədri Şeyxülislam Allahşükür Paşazadəni təbrik edib, onun fəaliyyətində ümummilli liderin ideyalarına sonsuz sədaqəti ilə seçildiyini, İslam dininin düzgün təbliği, cəmiyyətdə dini-mənəvi həmrəyliyin möhkəmləndirilməsi və dövlət-din münasibətlərinin inkişafında mühüm xidmətlər göstərdiyini vurğulayıb. Həmin gün yubiley tədbiri çərçivəsində Ordubad rayonunun Dırnıs kəndində “Allahşükür məscidi” istifadəyə verilib.

İqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edən muxtar respublikada aqrar sektorun inkişafı ən çox diqqət göstərilən sahədir. Elə bunun nəticəsidir ki, kənd yerlərində əhalinin məşğulluğunun təmin olunmasına mühüm töhfə verən qapalı suvarma şəbəkələri qurulur. Son illər istifadəyə verilən belə suvarma şəbəkələri hesabına 5 min hektara yaxın yeni torpaq sahələri əkin dövriyyəsinə qatılıb.

Dekabrın 6-da Ali Məclisin Sədri cənab Vasif Talıbovun iştirakı ilə Şahbuz rayonunun Türkeş kəndində yeni qapalı suvarma şəbəkəsi istifadəyə verilib.

Ali Məclis Sədrinin də vurğuladığı kimi, torpaqların əkin dövriyyəsinə qatılmasına, muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin olunmasına xidmət edən, eyni zamanda kənd sakinlərinin yaşayış səviyyəsini yaxşılaşdıran qapalı suvarma şəbəkəsinin qurulması ilə Türkeş kəndində 343 hektar torpaq sahəsi əkin dövriyyəsinə daxil edilib ki, bu da kənddə əkinçiliyin inkişafına mühüm töhfə verəcəkdir. Ali Məclisin Sədri bu münasibətlə kənd sakinlərini təbrik edib, qapalı suvarma şəbəkəsini işə salıb, torpaqların əkin atlasına uyğun əkilməsi, kənd sakinlərinin məhsuldar toxum sortları, gübrə və texnika ilə təmin olunması, güzəştli kreditlərin verilməsi və yeni qapalı suvarma şəbəkələrinin qurulması barədə aid təşkilatlara tapşırıqlar verib.

Müdafiə təhlükəsizliyinin təmin olunması Naxçıvan Muxtar Respublikasının davamlı inkişafının əsasıdır. Muxtar respublikada ordu quruculuğuna diqqətin artırılması, silah və texnika təminatı ilə yanaşı, həm də hərbi hissələrdə müasir xidmət infrastrukturunun və yaşayış şəraitinin yaradılması sahəsində tədbirlər görülür.

Dekabrın 7-də Əlahiddə Ümumqoşun Ordunun hərbi hissəsi üçün yeni qərargah binası istifadəyə verilib. Bu münasibətlə keçirilən tədbirdə iştirak edən Ali Məclisin Sədri cənab Vasif Talıbov deyib: ***“Əlahiddə Ümumqoşun Ordunun strukturuna daxil olan hərbi hissələrin təyinatlarına uyğun olaraq yerləşdirilməsi, yeni əsgəri-məişət komplekslərinin tikilməsi, müasir silah-sursatla təminatı qarşıda duran əsas vəzifələrdəndir. Bu gün qərargah binası istifadəyə verilən hərbi hissənin yaradılması və müasir əsgəri-məişət kompleksi ilə təmin olunması da görülən işlərin davamıdır. Muxtar respublikanın paytaxtı Naxçıvan şəhərindəki hərbi hissələrlə yanaşı, ən ucqar məntəqələrdəki postlar üçün də müasir əsgəri-məişət kompleksləri tikilərək istifadəyə verilmişdir. Əsgərlərimiz yaradılan şəraitdən istifadə edərək Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının təhlükəsizliyini və müdafiəsini etibarlı təmin edirlər”.***

Ali Məclisin Sədri yaradılan şəraitdən səmərəli istifadə olunacağına əminliyini bildirib, şəxsi heyətə xidmətdə uğurlar arzulayıb, xidmətin təşkili ilə bağlı müvafiq tapşırıqlar verib.

Naxçıvanda həyata keçirilən bütün tədbirlərin məğzində insan amili dayanır. Hələ illər öncə ucqarlardan başlanan quruculuq işləri ilə – kəndlərdə yaradılan müasir infrastruktur, yeni sosial obyektlər, çəkilən yollar, salınan körpülərlə əhalinin rahat yaşayışı təmin edilir.

Ötən il Şərur rayonunun Xələc kəndində də geniş quruculuq işləri görülüb, kənd muxtar respublikanın abad yaşayış məntəqələri sırasına daxil olub. Dekabrın 9-da Xələc kənd tam orta məktəbinin yeni binası, kənd mərkəzi, Yengicə-Xələc-Çomaxtur kənd avtomobil yolu, yeni xidmət mərkəzi sakinlərin istifadəsinə verilib. Ali Məclisin Sədri açılış tədbirlərində iştirak edib, təhsil, səhiyyə, mədəniyyət işçiləri ilə görüşüb, söhbət edib, onlara tövsiyələrini verib, kənd sakinləri ilə xatirə şəkli çəkdirib.

Ali Məclisin Sədri Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 13 sentyabr tarixli müvafiq Fərmanına əsasən Şərur rayonunda yaradılan Sənaye Məhəlləsində görülən işlərlə tanış olub, tikinti işlərinin layihəyə uyğun aparılması, daha çox tələbat olan məhsulların istehsalına üstünlük verilməsi, mühəndis-texniki tələblərə əməl olunması barədə tapşırıqlar verib.

2019-cu il muxtar respublikada icbari tibbi sığortanın tətbiqi ilə bağlı əsaslı tədbirlərin həyata keçirildiyi il kimi yadda qalıb. Ötən il iyulun 5-də Kəngərli, oktyabr ayının 31-də Şahbuz rayonlarında Ali Məclis Sədrinin sərəncamları ilə icbari tibbi sığortanın tətbiqinə başlanılıb, müşavirələr keçirilib, müvafiq tapşırıqlar verilib. Bu tədbirlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 2019-cu il dekabrın 10-da “Ordubad rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı əlavə tədbirlər haqqında” Sərəncam imzalayıb. Sərəncama uyğun olaraq həmin gün Ordubad rayonunda icbari tibbi sığortanın tətbiqinə başlanılıb, Ali Məclisin Sədri bununla bağlı keçirilən tədbirdə iştirak edib.

Dekabrın 10-da Ordubad rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı müşavirə də keçirilib. Ali Məclisin Sədri Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən muxtar respublikada icbari tibbi sığortanın tətbiqi sahəsində görülən işlərin nəzarətdə saxlanılması, bu sahədəki yeniliklərin öyrənilərək tətbiq edilməsi, Culfa və Babək rayonlarında icbari tibbi sığortanın tətbiqi sahəsində işlərin başa çatdırılması barədə aid qurumlara müvafiq tapşırıqlar verib.

Bu gün Naxçıvan Muxtar Respublikası hərtərəfli, xüsusilə sosial-iqtisadi inkişafı, coğrafi mövqeyinin turizmin bütün növlərini burada mümkün etməsinə görə dünyanın maraq göstərdiyi bir məkana çevrilib. Elə ötən il həm də muxtar respublikaya bir-birinin ardınca gələn xarici qonaqlarla da yadda qalıb.

Dekabrın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Qazaxıstan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Serjan Abdıkarimovu, dekabrın 11-də isə Macarıstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Viktor Szederkenyini qəbul edib. Qazaxıstan və Macarıstan respublikaları arasında iqtisadi, təhsil və turizm sahələrində qarşılıqlı əlaqələrin inkişafı üçün imkanların olduğunu diqqətə çatdırıb.



Ötən il Azərbaycana rəhbərliyə gəlməsinin 50 ili tamam olan ümummilli lider Heydər Əliyevin düşünülmüş siyasəti nəticəsində 1969-1982-ci illər Azərbaycan tarixinə iqtisadi və milli-mədəni yüksəliş dövrü kimi daxil olub. Həmin dövrdə respublika həyatının bütün sahələrində kompleks tədbirlər həyata keçirilib, Azərbaycan ittifaq respublikaları içərisində inkişaf tempinə görə öncül mövqeyə yüksəlib, tarixi-mədəni irsimiz, milli dəyərlərimiz qorunub yaşadılıb.

***“Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub”*** fikirləri həyat amalı olan görkəmli dövlət xadimi Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan müstəqil və inkişaf etmiş dövlət kimi regionda söz sahibinə çevrilib. Dahi rəhbərin şərəfli ömür yolu Vətənə xidmət nümunəsi, qürur və fəxarət rəmzidir. Onun xatirəsi hər bir azərbaycanlı üçün əzizdir.

Dekabrın 12-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsi önünə gül dəstəsi qoyub, xalqımızın böyük oğlunun xatirəsinə ehtiramını bildirib.

Naxçıvanda ilkin şəhərsalma mədəniyyətinin formalaşmasına başlıca təsir göstərən amillərdən biri – Duzdağ mədəniyyəti, duzçıxarma sənayesi bu gün müasir şəkildə inkişaf etdirilir. Ali Məclisin Sədri deyib: ***“Duz Naxçıvanın brendidir”***. Dekabrın 19-da Duzdağda yeni şaxta açılması münasibətilə keçirilən tədbirdə muxtar respublika rəhbəri yeni şaxtanın açılmasının və ərazidə yeni duz istehsalı müəssisəsinin qurulacağının əhəmiyyətini vurğulayıb.

Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Azərbaycandakı Tərəfdaşlıq və Əlaqələndirmə ofisinin rəhbəri Mələk Çakmak ilə görüşüb. Ali Məclisin Sədri Naxçıvanda keçirilən “Dayanıqlı inkişaf məqsədlərinə nail olunmasında özəl sektorun rolunun artırılması” mövzusundakı tədbirə görə qonağa təşəkkürünü bildirib, Azərbaycan ilə təşkilat arasında həyata keçirilən layihələrin əhəmiyyətindən bəhs edib.

Tarixin sınağından 30 illik bir zaman kəsiyində alnıaçıq çıxan Naxçıvan 2019-cu ilə də uğurlarını yazdı. Dekabrın 21-də beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onbirinci sessiyasında Ali Məclis Sədrinin məruzəsində deyildiyi kimi: ***“2019-cu ildə muxtar respublikada ərzaq, enerji və müdafiə təhlükəsizliyinin təmin olunması sahəsində görülən işlər davam etdirilmiş, makroiqtisadi göstəricilər artmışdır. Başa çatmaqda olan il muxtar respublikanın sosial-iqtisadi və ictimai-mədəni həyatında əlamətdar hadisələrlə yadda qalmış, Naxçıvan Muxtar Respublikasının yaranmasının 95 illik yubileyi qeyd olunmuş, bütün parametrlər üzrə iqtisadi sabitliyə və davamlı inkişafa nail olunmuşdur...”***

Əhalinin sosial, mədəni və məişət problemlərinin kompleks şəkildə həllinin vaxtında və keyfiyyətlə yerinə yetirilməsi baxımından yaradılması zəruri olan bələdiyyələrin hüquqi statusunun qanun çərçivəsində müəyyənləşdirilməsi ilk dəfə olaraq məhz ümummilli lider Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanıb və Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapıb.

2019-cu il dekabrın 23-ü ölkəmizdə, eləcə də muxtar respublikamızda növbəti bələdiyyə seçkilərinin qanunvericiliyin tələblərinə uyğun keçirilməsi üçün zəruri tədbirlər görülüb. Muxtar respublika üzrə 112 min 277 nəfər, yəni seçicilərin 41,4 faizi səsvermədə iştirak edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 4 saylı Naxçıvan Şəhər Seçki Dairəsinin Heydər Əliyev adına tam orta məktəbdə yerləşən 4-15 saylı seçki məntəqəsində səs verib, seçki prosesinin gedişi ilə maraqlanıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri “Babək rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı tədbirlər haqqında” 2019-cu il 24 dekabr tarixdə Sərəncam imzalayıb. Sərəncama əsasən Babək rayonunda icbari tibbi sığortanın tətbiqinə başlanılıb. Bu münasibətlə keçirilən tədbirdə iştirak edən Ali Məclisin Sədri deyib: ***“Babək rayonunda 76 mindən artıq əhali yaşayır. Əhaliyə rayon mərkəzi xəstəxanası, 2 sahə xəstəxanası, 13 həkim ambulatoriyası və 18 feldşer-mama məntəqəsi vasitəsilə tibbi xidmət göstərilir. 500-ə yaxın tibbi heyət əhalinin sağlamlığı keşiyində dayanır. Babək Rayon Mərkəzi Xəstəxanasında 25 adda 46 ədəd yeni tibbi avadanlıq və ləvazimatlar quraşdırılmışdır ki, bu da icbari tibbi sığortanın uğurla həyata keçirilməsinə imkan verəcəkdir. Ümumilikdə isə Babək rayonundakı bütün səhiyyə müəssisələrində icbari tibbi sığortanın tətbiqi mümkündür. Bu sahədə işlər müasir tələblər nəzərə alınmaqla davam etdiriləcəkdir”.***

Həmin gün Ali Məclis Sədrinin iştirakı ilə Babək rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı müşavirə də keçirilib.

Muxtar respublikada sahibkarlığın inkişafı sahəsində ardıcıl tədbirlər görülür. 2019-cu il də yeni istehsal sahələrinin yaradılması, daxili bazarın yerli məhsullarla təmin olunması, iş yerlərinin açılması ilə zəngin bir il kimi xarakterizə edilir. Dekabrın 25-də “Gəmiqaya Holdinq” Şirkətlər İttifaqının plastik kapsul və qapaq istehsalı sahəsinin istifadəyə verilməsi bu sahədə görülən işlərin ötən il üçün uğurlu yekunu olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak edərək deyib ki, Naxçıvan şəhərində istifadəyə verilən yeni müəssisə muxtar respublikada daha bir sahədə idxaldan asılılığı aradan götürəcəkdir. Bu günə qədər muxtar respublikada plastik butulkalara olan tələbatın 70 faizi idxal hesabına ödənilirdi. Müəssisənin istifadəyə verilməsindən sonra bu məhsullara olan tələbat tamamilə yerli istehsal hesabına ödəniləcəkdir.

Bu gün Naxçıvan Muxtar Respublikasında da yaşayış məntəqələri müasir görkəmə qovuşub, insanların rahat yaşayışı təmin edilib. Dekabrın 28-də – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ərəfəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun iştirakı ilə Kəngərli rayonunun Böyükdüz kəndində yeni sosial obyektlər istifadəyə verilib.

Tədrisin keyfiyyətinin yüksəldilməsi üçün geniş imkanların yaradıldığı 342 yerlik müasirtipli məktəb, lazımi avadanlıqlarla təchiz edilmiş həkim ambulatoriyası, yenidən qurulmuş, asfalt örtük salınmış ümumi uzunluğu 2600 metr olan kənd avtomobil yolu, təmir olunmuş, qumçınqıl qatı verilmiş 600 metr uzunluğundakı kənddaxili yollar və xidmət mərkəzi sakinlərin ixtiyarına verilməklə daha bir Azərbaycan kəndi müasirliyə qovuşub.

Ötən illər ərzində muxtar respublikada teatr sənətinin inkişafı ilə bağlı xeyli işlər görülüb. Bunun nəticəsidir ki, bu gün Naxçıvan teatrında həm yerli, həm də xarici yazıçıların bir-birindən maraqlı əsərləri səhnələşdirilir və uğurla nümayiş etdirilir. Dekabrın 29-da isə Naxçıvan Dövlət Musiqili Dram Teatrında Xalq yazıçısı Elçin Əfəndiyevin “Teleskop” əsəri əsasında hazırlanmış eyniadlı tamaşanın nümayişi olub. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tamaşaya baxıb.

Ümummilli liderimiz Heydər Əliyevin Naxçıvanda əsasını qoyduğu, dünya azərbaycanlılarını vahid ideologiya ətrafında birləşdirən həmrəylik bayramı xalq-ordu birliyinin

Ardı 3-cü səhifədə

də əsasını təşkil edir. Naxçıvan Muxtar Respublikasında da bu birlik ilbəil möhkəmləndirilir, həmrəylik bayramında əsgərlərlə görüşlər keçirilir, onlara sovqatlar təqdim olunur. Dekabrın 31-də – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günündə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Naxçıvan Qarnizonunun Hərbi Hospitalına gəlib, burada müalicə olunan əsgərlərlə görüşüb, onların səhhəti ilə maraqlanıb.

Ali Məclisin Sədri deyib: ***“Bu gün Naxçıvan Qarnizonunun Hərbi Hospitalında tibbi heyət tam formalaşmışdır. Bununla yanaşı, istər ucqar dağ və sərhəd bölgələrində, istərsə də mərkəzdə hərbi hissələr üçün müasir xidmət və yaşayış komplekslərinin istifadəyə verilməsi, əsgərlərin qidalanmasının və geyiminin diqqətdə saxlanılması xəstəliklərin sayını xeyli azaltmışdır. Görülən işlərin davamı kimi, hazırda Naxçıvan şəhərində regionun ən müasir hərbi hospitalı tikilir. Bütün bunlar ölkəmizdə uğurla davam etdirilən ulu öndər Heydər Əliyev yolunun, mövcud sabitliyin və iqtisadi inkişafın bəhrəsidir”.***

Həmin gün Naxçıvan Muxtar Respublikası Psixi və Ağciyər Xəstəlikləri dispanserlərində, Onkoloji və Yoluxucu Xəstəliklər mərkəzlərində müalicə alan xəstələrə və tibb işçilərinə də bayram sovqatları paylanılıb, müxtəlif adda ərzaq məhsulları anbarlara təhvil verilib.

Naxçıvanlılar 2019-cu ili muxtar respublikada bütün sahələrin inkişafı ilə müşayiət olunan uğur ili kimi yola salıb. Ötən ilin son günü – 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı Naxçıvan şəhərində minlərlə sakinin və turistin iştirakı ilə qeyd olunub.

Dekabrın 31-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov ailə üzvləri ilə birlikdə bayram şənliyində iştirak edib.

Yeni ilin gəlişi möhtəşəm bayram atəşfəşanlığı ilə qeyd olunub, 2020-ci il xoş ovqat və böyük təntənə ilə qarşılanıb.

*Bəli, muxtariyyətinin 95 illik yubileyini böyük təntənə ilə qeyd etdiyimiz Naxçıvan 2019-cu ilin son ayını da dahi şəxsiyyət Heydər Əliyevin inkişaf konsepsiyasının davamı olaraq bütün sahələrin uğurları ilə tarixin arxivinə verdi. Əldə olunan uğurlar, qazanılan nailiyyətlər isə ulu öndərimizin əməllərinin davam etdirilməsi, Naxçıvanda görmək istədiklərinin onun ardıcılları tərəfindən reallaşdırılmasıdır. Ali Məclis Sədrinin dediyi kimi:* ***“İnsan var ki, sağlığında əməlləri ölkəsinə, xalqına xeyir verir. İnsan da var ki, həm sağlığında, həm də yoxluğunda onun əməlləri yaşayır, insanlara doğru yol göstərir. Bu gün ümummilli liderimiz Heydər Əliyevin yolu, əməlləri yaşayır və bəhrəsi göz qabağındadır”.***

✍ **Mətanət MƏMMƏDOVA**

# Həyata “Teleskop”la baxış və ya mistikadan gerçəkliyə

***Milli və bütövlükdə, Şərq teatr sənətinin inkişafında özünəməxsus xidmətləri olan qədim Naxçıvan teatrı yeni ili teatrsevərlərə yeni sənət sevinci bəxş etməklə qarşıladı. Tanınmış yazıçı-dramaturq, ictimai və dövlət xadimi Elçin Əfəndiyevin on bir şəkil və iki epiloqdan ibarət “Teleskop” pyesi uğurla səhnə taleyi ilə yaddaşlara yazıldı.***

Qeyd etmək yerinə düşər ki, belə bir tragikomediyanın səhnələşdirilməsi bir neçə cəhətdən məsuliyyətli və çox ciddi bir iş idi. Belə ki, müasir Azərbaycan dramaturgiyasının zirvəsi sayılan İlyas Əfəndiyev ədəbi irsini və ziyalılıq etalonunu təkrarsız şəkildə yaşadıb özünəxas çalarlarla zənginləşdirməklə Elçin olan müəllif dünya səhnəsindən belə, sevilərək izlənilən bir dramaturqdur. Eyni zamanda tələbkar Naxçıvan tamaşaçısı da Xalq yazıçısının səhnə əsərlərinə nabələd deyil. Bu teatrda dramaturqun “Mənim ərim dəlidir”, “Mənim sevimli dəlim”, “Ah, Paris, Paris”, “Arılar arasında” pyesləri uğurla tamaşaya qoyulub. Yazıçının XIX əsrin əvvəllərinə aid tariximizi, o dövrdə baş verən siyasi prosesləri əks etdirən “Baş” romanı isə naxçıvanlı oxuculara “Oxunması zəruri olan kitabların Siyahısı” ilə yaxşı tanışdır.

Müraciət olunan əsərin səhnə quruluşunun Akademik Milli Dram Teatrda, Rus Dram Teatrında reallaşması, Londonda keçirilən ikinci Beynəlxalq “Buta” Azərbaycan incəsənəti festivalı çərçivəsində ingilis dilində səhnələşdirilməsi, Türkiyənin ən nüfuzlu festivallarından olan Bursa Beynəlxalq Teatr Festivalında Akademik Milli Dram Teatrının ifasında uğurla nümayiş olunması əsərə yeni quruluş verəcək rejissorun məsuliyyətini birə-beş artırırdı desək, yanılmarıq. Bütün bunları nəzərə alan, özü də peşəkar aktyorlarla yanaşı, gənc qüvvələrdən də istifadə edən gənc rejissor Həcərxanım Məmmədova belə bir çətin və məsuliyyətli işin öhdəsindən layiqincə gələ bilib.

Tragikomediya maraqlı bir süjet üzərində qurulub. Əsər avtomobil qəzası nəticəsində komaya düşüb bu dünya ilə o dünyanın arasında qalan birindən bəhs edir. Yəni tamaşa hər kəsin maraq dairəsinə aid olan ölümdən sonrakı həyat, özündən sonra həyatda baş verənlərdən agah olmaq istəyi kimi bir mövzu ilə cəlbedicidir.

Rejissor tapıntısı və istedadlı aktyor heyətinin uğurudur ki, həssas tamaşaçı ilk səhnədə dərhal anlayır ki, xəstəxanada ölümlə çarpışan Kişinin arvadının, uşaqlarının, qayınanasının, dostu və dostunun həyat yoldaşının vay-şivəni, əslində, bir səmimiyyətsizlik şousu, oyun içində oyundur.

Cərəyan edən hadisələr dirilərin yaşadığı Yer Kürəsi ilə mələklər və ruhlar məkanı – Keçid Stansiyası arasında sürətlə dəyişir, tamaşa tragikomik situasiyanın dərinliyi ilə seçilir. Uğurlu səhnə quruluşu, teatrın yüksək texniki imkanlarından istifadə nəticəsində real həyatla mistik dünya – Yer və Göy səhnələri ustalıqla, dinamik şəkildə dəyişilir. Bu zaman-məkan kəsişmələri nəticəsində tamaşaçı bəzən özünü bir ruh kimi axirətdə – ağappaq buludların üzərində, mələklər arasında, bəzən də eybəcərlikləri də az olmayan real həyatda hiss edir. Bu da insanın daxili, mənəvi ziddiyyətlərinin səhnə təqdimatının düzgün həllidir.

Əsərin qəhrəmanı, ölüm ayağında olan Kişi (Xalq artisti Rza Xudiyev) cənnət və cəhənnəmin ərəfəsində infarktdan dünyasını dəyişmiş birinci həyat yoldaşı (Mehri Nəbiyeva) ilə qarşılaşır və onun sayəsində bir çox həqiqətləri üzə çıxarır. Tamaşa,





əsasən, bu iki baş qəhrəmanın dialoqu üzərində qurulub və bu mənada, iki aktyorun uğurlu teatrı da adlandırıla bilər. Tamaşaçı Mehri Nəbiyevanın peşəkar aktyor ifası vasitəsilə o dünyanın özünəməxsuslıqları – “gündəlik həyatı”, “qayda-qanunları”, “adət-ənənələri” ilə tanış olur. Bu ağappaq dünyada ruhlar quş kimi azaddırlar, bütün maddiyyatlardan, cismani tələbatlardan uzaqdırlar, artıq günah işləyə, yalan danışa, dalaşa bilməzlər. Cənnətlə cəhənnəmin yol ayrıcında hamı bərabərhüquqlu və hətta eyni çəkiyə, yəni elə eyni dəyərə malikdir. Əsərdəki müharibə və terrorun, dövrün faciəvi xəstəliklərinin ölüm sayının artmasının başlıca səbəbləri olması kimi aktual məsələ də tamaşaçıya yetərincə çatdırıla bilir.

Maraqlı cəhət burasındadır ki, axirət dünyasının astanasında Rəyasət Heyəti, restoran, test imtahanları, dispetçer məntəqəsi, məhkəmə, apelyasiya şikayəti, kargüzarlıq işləri, iclas, hətta teleskop kimi müasir anlayışlarla qarşılaşırıq. Rejissor ustalıqla tamaşaçıya çatdıra bilir ki, müəllif bu məfhumları insanların daxili aləmlərindəki ziddiyyətləri, mənəvi-psixoloji paradoksları açmaq üçün o dünyaya “apararaq” mistikləşdirib. Yeri gəlmişkən, Elçinin dramaturgiyasında konkret insan adlarından istifadə etməyib qəhrəmanlarını “Kişi”, “Xanım”, “Oğul” adlandırması da problematikanın ictimailiyini, qloballığını çatdırmaq istəyindən irəli gələn spesifik ədəbi priyomdur.

Kişi ruhlar və mələklər məkanında teleskop sayəsində hamının başına and içdiyi, peyğəmbər kimi tanıdığı Həkimin əxlaqsız olduğunu görür. Aktyor Səyyad Məmmədov bu obrazı tamaşaçıya ustalıqla təqdim edə bilir. “Mələk” qayınanası, kürəkəni ölmüş ona nə qədər pensiya verəcəkləri barədə düşünür. Aktrisa Nazlı Hüseynquliyeva bu riyakarlığı məharətlə yaradır. Aktrisa Zəminə Məmmədova isə Ruhun komaya düşməsi ilə onun sevimli arvadının yeni sevdalara düşdüyünü təfərrüatı ilə tamaşaçıya çatdırır. Kişinin oğlu və qızı isə atalarının halına acımaq əvəzinə onun gizlətdiyi pulları tapmaq və özlərinə maşın almaq üstündə mübahisə edirlər. Aktyorlar – Anar Eyvazov və Səkinə Məmmədova var-dövlət hərisi olan övlad obrazları ilə tamaşaçıda ikrah hissi doğurmağa müvəffəq ola bilirlər. Teleskop müşahidəsindən aydın olur ki, ən yaxın dostu və onun xanımı xəstəxanaya onu yoluxmağa məcburiyyət qarşısında – el qınağına gedirlər. Aktyorlar Ələsgər Quliyev və Kəklik Novruzova ifalarındakı bu üzüdönüklük və səmimiyyətsizliyi ustalıqla ifa edirlər.

Xalq artisti Rza Xudiyev ölümü ilə barışmayıb həyat uğrunda çarpışan, lakin hər dəfə teleskopla doğmalarının iç üzünü gördükdə yenidən ölüb-dirilən, buna görə də onların yanına geriyə – həyata qayıtmaq istəyindən vaz keçən bir obrazı məharətlə canlandırır. Aktyor teleskopun Yeri ona yaxınlaşdırmaqla onu Yerdən bir o qədər uzaqlaşdırmasını – mənəvi iztirablarını, daxili təbəddülatlarını dolğunluqla tamaşaçıya çatdırır. Əsər əsas obrazın “mən insan olmaq istəmirəm” etirazı ilə kuliminasiya nöqtəsinə çatır. Ruhun dilindən deyilən “Bəs Vətən? Vətən!.. Müqəddəs Vətəndən əbədi ayrılmısan! Vətəni, doğma yurdu unutmaq olar?” çağırışı isə əsl vətənpərvərlik və həyatsevərlik şüarı kimi tamaşaçıya həmişəlik sirayət etmək gücünə malikdir.

Əsər ideya etibarı ilə dahi Mirzə Cəlilin “Ölülər” tragikomediyasındakı məşhur qəbiristanlıq səhnəsini də xatırladır. Tamaşa bir əsr öncə ölülərin dirildilməsinə razılıq verməyən “dirilərin” müasir prototipləri ilə bizləri qarşı-qarşıya qoyur.

Nəhayət, Kişi heç bir ruh qoyub gəldiyi, inandığı, etibar etdiyi yaxınlarının iç üzünü görüb nifrət etməsin deyə teleskopu tərsinə çevirir. Ruhlar və Mələklər dünyasında aləm bir-birinə dəyir. Əcəl vaxtı çatmamış adamın səhvən o dünyaya aparılması böyük qalmaqala səbəb olur. Ruhların hamısının teleskopdan imtina etməklə Kişi ilə həmrəy, həmfikir olması isə pisliklərə qarşı güclü etiraz dalğası kimi səslənir. “O” isə indiyədək teleskopla həyata baxanların ürəkaçan, fəxr edəcək, qürur duyacaq mənzərə görmədikləri üçün bu cihazın ləğv edilməsinə qərar verir. Mələklərin Rəyasət Heyətinin keçirdiyi iclasda isə ruhun hələ tam yetişmədiyi üçün geri qaytarılması qərara alınır. Bu səhnədə mistik obrazlarla – Cənab Cəbrail (Xalq artisti Həsən Ağasoy), Cənab Mikail (Azərbaycan Respublikasının Əməkdar artisti Tofiq Seyidov), Cənab İsrail (Azərbaycan Respublikasının Əməkdar artisti Əli Əliyev) ilə yaxından tanış oluruq. Ruh nə qədər etiraz etsə də, Cənab Əzrail onu yenidən Yer kürəsinə qaytarır.

Bu yerdə onu qeyd etmək yerinə düşər ki, adətən, şifahi xalq ədəbiyyatından, dini rəvayətlərdən ölüm xəbərçisi və icraçısı kimi qorxunc və dəhşətli, arzuolunmaz mifik obraz kimi tanıdığımız Əzrail tamaşada sadə, bir az da saf bir varlıq kimi canlandırılır. Bəlkə də, canalma məqamlarında həyatla, insanlarla daha çox ünsiyyətdə olduğu üçündür ki, Xalq artisti Rövşən Hüseynov Əzrail obrazına kəskin psixoloji-dramatik situasiyalarda vəziyyəti yumşaltmağa xidmət edəcək bir mülayimlik də qatır.

Koma vəziyyətində olan adam həyata qayıdır. Sevinc, təəssüf hissləri bir-birinə qarışır. Yaşamaq, yoxsa ölmək? Rejissor müəllif ideyasından çıxış edərək tamaşaçını Şekspirin məşhur Hamletinin “Olum, ya ölüm?” dilemması qədər çətin seçim qarşısında qoya bilir.

Bu məqamda diqqəti ikinci epiloqa yönəltməklə demək istərdim ki, ailəni mikrocəmiyyət kimi götürsək, Kişinin həyata qayıtması ilə ailə üzvlərinin tamaşanın əvvəlindən fərqli olaraq səmimi şəkildə ailə başçısı ətrafında bir birlik nümayiş etdirməsi özü tamaşaçıya çox söz deyir.

Gözoxşayan səhnə tərtibatı, dekorasiyaların məkana uyğun olaraq yenilənməsindən danışarkən Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyevanın əməyini qeyd etmək yerinə düşər. Musiqi tərtibatçısı, sənətşünaslıq üzrə fəlsəfə doktoru Natəvan Qədimova isə klassik dünya və milli musiqi nümunələrindən istifadə etməklə tamaşaçını hər iki dünyaya kökləyə bilir.

Tamaşaya baxan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov səhnə əsərini yüksək qiymətləndirərək demişdir: ***“Rejissor işi, aktyorların ifası, musiqi tərtibatı və digər bütün cəhətləri ilə “Teleskop” tamaşasını Naxçıvan teatrının səhnəsində oynanılan tragikomediyaların şahı hesab etmək olar. Bu tamaşa “Ölülər”dən sonra Naxçıvan teatrında oynanılan ən uğurlu səhnə əsəridir. Çünki “Ölülər”dən fərqli olaraq “Teleskop” əsərində real həyat gerçəklikləri müasir dövrə uyğun təqdim olunur... Bugünkü tamaşanın əsas uğurlarından biri də peşəkar həyatla birlikdə gənclərin də üzərlərinə düşən vəzifəni layiqincə yerinə yetirməsi idi. İstər rejissor işində, istərsə də aktyorların ifasında bu bir daha özünü təsdiq etdi. Naxçıvan teatrında bu cür tamaşaların nümayişi bir daha göstərir ki, ötən illər ərzində muxtar respublikada teatr sənətinin inkişafı ilə bağlı görülən işlər, çəkilən birgə zəhmət hədər getməmişdir. Teatr hər bir xalqın mədəni inkişafını göstərən birinci amildir. 130 ildən artıqdır ki, Naxçıvan teatrı da öz ənənələrini yaşadır və inkişaf edir”.***

Tamaşanın rejissoru Həcərxanım Məmmədova ilə söhbətimiz zamanı ilk ciddi işinin belə yüksək qiymətləndirilməsinin ona hədsiz qürur hissi yaşatdığını və gələcək sənət uğurları üçün böyük stimul verdiyini söylədi.

Tamaşanın başlıca uğuru ondadır ki, dünyanın faniliyi və haqq dünyasının əbədi gözəllikləri haqqında dolğun təəssürat yaratmaqla yanaşı, həm də ibrətamiz, faciəvi situasiyaları ilə düşünməyə vadar edir. Belə ki, insanların maddi aləmdə yüksək dəyərləndirdiyi məfhumlar mənəvi aləmdə tamamilə dəyərsizləşir. Həqiqət və ədalət isə yalnız dünyanı xəlq edən Uca Yaradanın iradəsi ilə bərqərar olur.

Bir məsələni də qeyd etmək yerinə düşər ki, tanınmış dramaturqun Naxçıvan Dövlət Musiqili Dram Teatrında vaxtilə səhnələşdirilən “Arılar arasında” əsəri ideya-mövzu etibarilə Nobel mükafatı laureatı, yazıçı Moris Meterlinkin “Arıların həyatı” əsəri ilə, “Teleskop” əsəri isə dünya şöhrətli dramaturqun digər bir əsəri – mistik “Göy quş” pyesi ilə həmahənglik təşkil edir.

*Baxdığımız “Teleskop” adi astronomik cihaz olmayıb gözlə görünməyənləri daha aydın görmək, müşahidə və dərk etmək, proqnozlaşdırmaq, nəticə çıxarmaq kimi böyük məna tutumuna malikdir. Daha geniş mənada səhnədəki “Teleskop” bəsirət gözü, vicdanın səsi, mənəviyyat güzgüsü deməkdir. Nə acı ki, uzaq Amerikadan, Yaponiyadan, Hindistandan gələnlər Naxçıvanı bütün reallıqları ilə görüb onu sanki qalaktikadakı qeyri-adi planet kimi yenidən kəşf etməklə təqdir etdikləri halda, bəzi “özümüzünkülər” Naxçıvan həqiqətlərini nəinki etiraf etmək böyüklüyünə malik deyillər, hətta bu diyarda yaradılan gözəllikləri, əldə olunan inkişafı var-qüvvələri ilə qaralamaq, ləkələmək istəyirlər. Əsərdə belə bir maraqlı məqam vardır: teleskop tez-tez ağ rənglə rənglənməsinə baxmayaraq qaralır. Bəli, günümüzdə də gördükləri reallıqları dilə gətirmək istəməyənlər, hətta xaincəsinə təhrif edənlər nə qədər ağ rəngə boyanmağa çalışsalar da, qaraniyyətlilikləri, mənfurluqları onları hər zaman ifşa edəcək. Elə “Teleskop”un Naxçıvanda “qurulması” da həqiqəti olduğu kimi görmək, dərk etmək və çatdırmağa çağırış kimi bir ülvi niyyətdən irəli gəldiyi üçün belə uğurla alındı, böyük tamaşaçı rəğbəti ilə qarşılandı. Yalnız həqiqəti deyənlərə əsərdəki Cənab Mikailin söylədiyi kimi nə vaxtsa həyatda yaşayanlar üçün sevinmək qismət ola bilər. Əgər 150 illik ömrü tamaşadakı kimi cəza olaraq qəbul etmək istəmiriksə, bu səhnə əsərindən ibrət götürüb Vətənə, xalqa, dövlətə layiq biri olmalıyıq. Bax onda, Vətən bağında əsərdəki kimi mənfur qarğalar yox, gözəl bülbüllər oxuyar!..*

✍ **Mehriban SULTAN**
*filologiya üzrə fəlsəfə doktoru*

# Gün o gün olsun ki...

*Məşhur filosoflardan biri insan ömrünü əbədi zamanla müqayisədə bir göz qırpımına bərabər tutur. Və bir qədər dərindən düşünəndə bunun həqiqət olduğuna inanmaya bilmirsən. "Kitabi-Dədə Qorqud"dakı bu sətirləri xatırlayırsınızmı?*

*Gəlimli-gedimli dünya,*
*Son ucu ölümlü dünya.*

Məsələ də bax, bu gəlimli-gedimli dünyada sənə verilən bir göz qırpımı boyda ömrü necə yaşamaqdır. Bu barədə düşünəndə günlərlə ac-susuz qalaraq qazandığı qəpik-quruşu qələmə, kağıza, zərfə verərək yazdıqlarını qəzet və jurnal redaksiyalarına göndərən Martin İdenin özünü təsdiq etməsindən bəhs olunan Cek Londonun "Martin İden", ayaqları ilə gözəl rəsmlər çəkən Vinset Van Qoq haqqında İrvinq Stounun qələmə aldığı "Yaşamaq yanğısı", dünya və Azərbaycan ədəbiyyatına məxsus bir sıra gözəl əsərləri xatırlayıram: Həyat insanı hər cür sınağa çəkə bilər,





onu əzabla yaşamağa məhkum edə bilər. Bunlar fiziki ağrılarla yanaşı, insana həm də mənəvi ağrılar gətirən hallardır. O insan övladı həyatda özünü təsdiq edə bilir ki, həmin həyatın ona "bəxş etdiyi" çətinliklərə qalib gəlir... Bu düşüncələr ötən ilin son günlərində Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində olarkən məndə yarandı.

Üz tutduğum müəssisə Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində uzaqdan diqqəti çəkir. Yəqin ki, Naxçıvan-Şərur magistralı ilə bu ərazidən keçənlər buranı, el dilində desək, "türmə" deyə tanıyırlar. Və müasir təfəkkürümüzdə belə ünvanlar, əslində, azadlıqdan məhrum edilmiş insanların islah yeri kimi formalaşsa da, 30-40 il bundan əvvəl məhkum həyatı yaşayanlar üçün heç də elə olmayıb. Elə o dövrdə belələrinin həyatını, sözün həqiqi mənasında, "məhv olmuş ömür" adlandırırdılar...

Penitensiar Xidmətin Təşkilat-Nəzarət Şöbəsinin rəisi, ədliyyə polkovnik-leytenantı Əli Rəhimovla adıçəkilən magistraldan müəssisəyə gedən yolda gördüklərim ilk müsbət təəssürat yaradır. Ucu-bucağı görünməyən ərazidə yeni əkilmiş tinglər diqqətimi çəkir. Öyrənirəm ki, 25 hektar ərazidə hər il yaşıllaşdırma işləri aparılır, əvvəlki illərdə əkilmiş tinglərə aqrotexniki qulluq göstərilir. Bu tədbirləri, təbii ki, məhkumlar yerinə yetirirlər. Deməli, onların gücündən xeyirxah məqsədlər üçün istifadə olunur, diyarımızın florasının zənginləşməsinə məhkumlar da töhfələrini verirlər. Düşünürəm ki, vaxt gələcək, dəmir barmaqlıqlar arasında məhkumluq həyatını başa vuranlar bu yoldan keçəndə əkdikləri fidan tinglərin qollu-budaqlı ağaclara çevrildiyini, insanlara xoş ovqat bəxş etdiyini görəndə görəsən nə fikirləşəcəklər? Yəqin ki, etdikləri ağılsız hərəkətə, pozduqları qanunlara görə burada yaşayarkən cəmiyyət üçün az da olsa, fayda verdiklərini...

Budur, müəssisənin qarşısındayıq. Ətrafa göz gəzdirirəm. Hər tərəf səliqə-sahmandadır. Ağacların, gül kollarının qayğı ilə əhatə olunduğu ilk baxışdan hiss edilir. Bir azdan belə qayğının məhkumlara da göstərildiyini görəcəyik...

İlk olaraq ötən dövr ərzində bu müəssisənin özünə göstərilən dövlət qayğısı haqqında məlumat vermək istərdik. 2008-ci ildə fəaliyyətə başlayıb. Bununla da bir sıra problemlər öz həllini tapıb. Muxtar respublikada cinayət törətmiş Azərbaycan vətəndaşlarının ölkənin müxtəlif yerlərdə fəaliyyət göstərən cəzaçəkmə müəssisələrinə aparılması, eyni zamanda cəza dövründə onların valideynlərinin, yaxınlarının görüşə getmələri blokada şəraitində olan muxtar respublikamız üçün bir sıra çətinliklər yaradırdı. Penitensiar Xidmətin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsinin yaradılması bu çətinlikləri tamamilə aradan qaldırıb. Müəssisənin açılış mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri çıxış edərək bildirib ki, Azərbaycan vətəndaşları ölkəmizin milli sərvətidir. Biz bu sərvəti qorumalı, vətəndaşlarımızı Azərbaycanın inkişafına, ölkəmizin gələcəyinin, müstəqilliyinin möhkəmləndirilməsinə istiqamətləndirməliyik. Təsadüf, yaxud özünü idarə edə bilməməsi nəticəsində cinayət və ya qanun pozuntusu törətmiş şəxslər isə burada tərbiyə olunmalıdırlar.

Və bu vəzifənin yerinə yetirilməsi üçün müəssisədə hərtərəfli şərait yaradılıb. Elə bir şərait ki azadlıqdan məhrum edilmiş insanlar burada da onların arxasında dövlətimizin dayandığını hiss etsinlər. Bundan sonra müqəddəs qanunlarımızın pozulmasına yol verməsinlər, öz səhvlərini başa düşərək sağlam həyat yaşasınlar. Cəmiyyətimizə, dövlətimizə, dövlətçiliyimizə, müstəqilliyimizə sədaqətli olsunlar. Bu əvəzolunmaz nemətlərin keşiyində dursunlar. 2016-cı ilin fevral ayında müəssisədə yeni yaradıcılıq və istehsalat binasının istifadəyə verilməsi daha bir qayğının ifadəsi kimi məhkumların islah olunmasına böyük töhfəsini verir. Bu, muxtar respublikada insan amilinə nə qədər dəyər verildiyinin göstəricisidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dediyi kimi: ***"Məhkumluq həyatı yaşayan və peşəsi olmayan vətəndaşlar məhkumluq müddəti başa çatdıqdan sonra cəmiyyətə qayıdırlar. Müəyyən səbəblərə görə məhkumluq həyatı yaşayan bu insanların sonradan peşə öyrənmələrində müəyyən çətinliklər yaranır. Ona görə də yaradıcılıq və istehsalat sahəsində məhkumlara 10 ixtisas üzrə peşələr öyrədiləcək və onlar cəmiyyətə sənəti, peşəsi olan vətəndaş kimi qayıdacaqlar. Burada açılan ixtisaslar muxtar respublika üçün tələbat olan sahələrdir. Belə ki, muxtar respublikanın müəssisə və təşkilatlarında 500-dən artıq qazanxana fəaliyyət göstərir. Həmçinin kənd yaşayış məntəqələrində istifadəyə verilən xidmət mərkəzlərində bərbərxana, gözəllik salonları, dərzi otaqları istifadəyə verilmiş, yeni iş yerləri açılmışdır. Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsinin yaradıcılıq və istehsalat sahəsində müxtəlif peşələri öyrənən məhkumların bir hissəsi gələcəkdə məhkumluq müddəti başa çatdıqdan sonra bu sahələrdə işlə təmin olunacaqlar".***

Müəssisənin rəis müavini, ədliyyə mayoru Rəşad Fərzəliyev iki mərtəbədən ibarət olan binadakı otaqlar barədə məlumat verir. Burada istehsalat və tədris, nəzarətçi otaqları, yeməkxana vardır. Binada





istehsalat prosesi ilə yanaşı, kompüter istifadəçisi, nəqqaşlıq və misgərlik, ağac, daşduz üzərində oyma, dərzi, rəssam, ayaqqabı təmiri və bərbər peşələri üzrə kurslar da təşkil olunur. Bunun üçün tədris otaqları təyinatına uyğun avadanlıqlarla təmin edilib, kompüter otağında 8 kompüter dəsti quraşdırılıb, 29 məhkumun eyni vaxtda müxtəlif peşə fəaliyyəti ilə məşğul olması üçün şərait yaradılıb.

Onu da qeyd edək ki, burada müntəzəm olaraq keçirilən kurslarda Naxçıvan Regional Peşə Tədris Mərkəzinin müəllim və istehsalat ustaları öz bilik və bacarıqlarını məhkumlara öyrədirlər. Təkcə ötən il 3-ü xalçaçılıq və 15-i daş üzərində oyma olmaqla, 18 məhkuma sertifikat verilib. Ümumilikdə isə bu günədək 150 məhkum müxtəlif peşə sahələri üzrə sertifikat alıb.

Bir məsələni də qeyd edək ki, burada talelərinin onlara "bəxş etdiyi" məhkum həyatı yaşayan zərif cinsin nümayəndələri üçün qadın bölümü yaradılıb. Onlar bu bölümdə xalça toxuyur, müxtəlif hədiyyələr hazırlayırlar. Müəssisədə fəaliyyət göstərən çörəkbişirmə sexində müasir avadanlıqlar quraşdırılıb. Sexdə məhkumlar çalışır, onlar taleyin birgə yaşamağa məcbur etdiyi insanlar üçün keyfiyyətli çörək bişirilməsinə səy göstərirlər.

Ölkəmizdə insan sağlamlığına göstərilən qayğının bütün təzahürlərini burada da gördük.

Müəssisənin tibbi-sanitar hissəsində stomatoloji, ultrasəs müayinə, sarğı, psixiator, dermotoloq otaqları, əczaxana, laboratoriyanın xidmətindən istifadə olunur. Ehtiyac duyulanda Naxçıvan şəhərində fəaliyyət göstərən səhiyyə müəssisələrindən həkimlər dəvət edilir və bütün bunlar pulsuz həyata keçirilir.

Müəssisədə tikilmiş binalardan biri görüş bölməsidir. Buraya gələn qohum-əqrəbanın öz məhkum yaxınları ilə görüşməsi üçün qısa və uzun müddətə hərtərəfli şərait yaradılıb. Bölmə bütün məişət avadanlıqları ilə təchiz olunub. Mətbəx, televizor, soyuducu onların ixtiyarına verilib. Digər bir bölmə müəssisə nizam-intizamını pozanlar üçün nəzərdə tutulub. Ancaq son bir ildə həmin bölməyə heç bir məhkum salınmayıb. Bu isə onlar arasında aparılan düzgün maarifləndirici tədbirlər hesabına mümkün olub.

Anbar, camaşırxana, yeməkxanada yaradılmış şərait də yüksək səviyyədədir. Məhkumların fiziki sağlamlığının da qeydinə qalınır. Onlar 3 mini-futbol meydançasından istifadə edirlər. Müəssisədə bəzi idman növləri üzrə yarışlar təşkil olunur. Şahmat, futbol, voleybol üzrə yarışlarda məhkumlar bacarıqlarını nümayiş etdirirlər. Cəzaçəkənlərin asudə vaxtlarının səmərəli təşkilində müəssisədə fəaliyyət göstərən 7 kitabxananın böyük rolu var. Kitabxanalar zəngin kitab fonduna malikdir.

Müəssisədə məhkumlar üçün 3, zabitlər üçün 1 mağaza fəaliyyət göstərir. Bu da onların istədikləri məhsullarla təmin olunmasına imkan verir.

Polkovnik-leytenant Əli Rəhimovla müəssisənin böyük ərazisini gəzdikdən sonra məhkumların yaradıcılıq və istehsalat binasına qayıdaraq buradakı iş prosesini izlədik, onlarla həmsöhbət olduq. Məlumat üçün bildirək ki, burada müxtəlif ölçülərdə stollar, şkaflar, kompüter və telefon altlıqları, nərd taxtaları, şahmat və dama dəstləri və digər hədiyyələr hazırlanır. Bu məhsulların satışı da diqqət mərkəzindədir. Naxçıvan şəhərində açılmış mağazadan həmin məhsulları almaq olar. Həmçinin məhkumları görməyə gələn yaxınları da bu işdə fəallıq göstərirlər.

Məhkum Bayram Məmmədov, Elmar Fətəliyev, Arif Cəfərovla söhbətimizdə bildirdilər ki, onlar etdikləri əməldən peşmandırlar. Özlərinə düzgün yol seçməyi qarşılarına məqsəd qoyublar. Bu düzgün yolun ilk addımını elə yaradılan istehsalat sahəsində atıblar. Burada müxtəlif əl işlərinin hazırlanmasını öyrəniblər.

Onlar məhkumluq həyatı yaşamağı heç kimə arzulamadıqlarını, azadlıq qədər şirin nemətin olmadığını diqqətə çatdırdılar. Arifin dediklərindən: – Bax, bu gördüyünüz nərdtaxta məndən daha azaddır. Bir neçə gündən sonra o, azadlıqda müxtəlif insanların əlində olacaq. Amma mən azadlıqda deyiləm. Törətdiyim cinayətə görə çox peşmanam. Sonrakı peşmançılıq isə əsla fayda verməz. Burada həyatın mənasını daha yaxşı anladım. Yaradıcılıq və istehsalat binası mənim həyatımda dönüş yaratdı. Azadlıqda bu sənətimi davam etdirəcəyəm.

Elmar Fətəliyev: – İstərdim ki, ailəmin yanında olum, qazandığım puldan övladlarıma nələrsə alıb onları sevindirim. Elədiyim səhv ucbatından onlardan uzaq düşdüm. Düşünürdüm ki, bəs ailəmə, uşaqlarıma necə baxacağam? Bu istehsal sahəsi bizim həm də çörəkpulu qazanmağımıza şərait yaratdı. Bunun üçün dövlətimizə minnətdaram. Burada hərəmiz müxtəlif peşə öyrənirik. Azad olunan şəxslərin əksəriyyəti kimi, mən də öyrəndiyim peşəni azadlıqda da davam etdirəcəyəm. Bizə yaratdığı belə şəraitə görə dövlətimiz sağ olsun. Bu istehsal sahəsində hazırladığımız məhsulları sataraq qazandıqlarımızı evimizə göndəririk, ən başlıcası isə yoldaşlarımın da dediyi kimi, burada hansısa bir peşəyə yiyələnmişik.

Qeyd edək ki, biz müəssisədə olarkən 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il ərəfəsi idi. Bu münasibətlə məhkumları təbrik edərək onlara arzularımızı bildirdik:

– Gün o gün olsun ki, siz də azadlığa qovuşub, xalqımızla həmrəy olub, dövlətimizin inkişafına töhfələrinizi verəsiniz.

Müəssisədən ayrılarkən məhkumlardan birinin sözlərini xatırladım:

– Azad olunacağım günü gözləyirəm.

Geri dönüb müəssisənin həyətində gəzişən o insanlara baxdım, ürəyimdə dedim:

– Gün o gün olsun...

**Muxtar MƏMMƏDOV**

## İşaxtaran vətəndaşların nəzərinə!

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti işaxtaranları Naxçıvan Regional Peşə Tədris Mərkəzində bərbər peşəsi üzrə kurs keçməyə dəvət edir. Kursun tədris müddəti 3 aydır.

Peşə hazırlığı kursunda iştirak etmək istəyənlər 15 yanvar 2020-ci il tarixədək tələb olunan aşağıdakı sənədləri yaşadıqları ərazi üzrə məşğulluq mərkəzlərinə təqdim etməlidirlər:

*1.Yaşayış yerindən arayış*
*2.Şəxsiyyət vəsiqəsinin surəti*
*3.Tibbi arayış*

**Əlaqə telefonu: 545-32-33**

### *İtmişdir*

Rzayev Fərəməz Sevindik oğlunun adına olan 020755 nömrəli müharibə veteranı vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan:** ***AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.***
***Telefonlar: Məsul katib: 545-62-47***
***Şöbələr: 545-81-44, 545-51-18***
***Müxbirlər: 545-75-21, Faks: 544-52-52***
**E-mail:** ***serqqapisi@nakhchivan.az***

**Qeydiyyat №: 575**
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

***Nömrəyə məsul:*** **Səbuhi Həsənov**
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
**Tiraj: 1500. Sifariş № 10**